Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Heyrətamiz istedada malik sənətkar

**Xalq artisti maestro Niyazinin 110 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Heyrətamiz istedada malik sənətkar**: **Xalq artisti maestro Niyazinin 110 illiyi münasibətilə** mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 27 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Bölmə I
## Həyat və yaradıcılığı

Avqustun 20-si dünya şöhrətli dirijor, bəstəkar, ictimai xadim, SSRİ Xalq artisti, beynəlxalq və dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun 110 illiyi tamam olur.

Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov 1912-ci il avqust ayının 20-də Tiflis şəhərində dünyaya göz açıb. Niyazinin atası Zülfüqar Hacıbəyov dahi bəstəkar Üzeyir bəyin qardaşı, Azərbaycanda milli musiqili komediya janrının yaradıcılarından biri olub. Belə bir mühitdə böyüyən Niyazinin musiqi qabiliyyəti erkən yaşlarından özünü biruzə verir. O, ilk təhsilini 1921-ci ildə Y.Şefferlinqin rəhbərliyi altında skripka sinfində alır. Niyazinin musiqi təhsilinə əmisi Üzeyir bəy nəzarət edir və Üzeyir bəyin məsləhəti ilə Niyazi 1926-cı ildə Moskvada Qnesinlər adına musiqi məktəbində (Q, Popov və P.Ryazanovun sinfində) təhsilini davam etdirir.

Niyazi 1932-ci ildə Dağıstan Xalq Maarif Komissarlığında elm, ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəsifəsinə təyin olunur. 1933-cü ilə Həcər xanımla ailə qurduqdan sonra Bakıya qayıdaraq konservatoriyada professor L.Rudolf və S.Ştrasserin rəhbərliyi ilə təhsilini davam etdirir. Bu illərdə Niyazi musiqi əsərləri bəstələyir. 1934-1935-ci illərdə isə dirijorluq fəaliyyətilə məşğul olur.

1937-ci ildə Niyazi Opera və Balet Teatrına dəvət olunur. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə M.Maqomayevin “Nərgiz” operasına dirijorluq edərək böyük müvəffəqiyyət qazanır.

Niyazinin sonrakı illərdəki fəaliyyəti də öz bəhrəsini verir. 1946-cı ildə Niyazi Leninqradda (Sankt-Peterburq) keçirilən dirijorların müsabiqəsində laureat adını qazanır. 11

xarici ölkədə konsertlər idarə edən maestro mahir dirijor kimi bütün dünyada şöhrət qazanır.

Niyazi simfonik janra müraciət edən ilk Azərbaycan bəstəkarlarından biridir. Onun 1949-cu ildə yazdığı “Rast” simfonik muğamı dramaturji bitkinliyi, güclü emosionallığı, zəngin melodiyası ilə seçilən mükəmməl əsərlərdən biridir.

1942- ci ildə Nizaminin “Xosrov və Şirin” poeması əsasında yazdığı eyniadlı opera, 1961-ci ildə hind yazıçısı Rabindranat Taqonun əsərləri əsasında yazdığı “Çitra” baleti musiqi xəzinəmizin  ən qiymətli nümunələrindəndir.

Görkəmli sənətkar, eyni zamanda kamera-instrumental əsərlərin, mahnı və romansların da müəllifidir. Onun Vətən haqıında mahnı və “Arzu” romansları bu gün musiqisevərlər tərəfindən rəğbətlə dinlənilir.

Niyazi Azərbaycan musiqi tarixində ilk dəfə olaraq “Rast” və “Şur” muğamlarını nota köçürüb, həmçinin Azərbaycan filmlərinə ilk musiqi yazan bəstəkarlardan olubb. “Kəndlilər”, “Almaz”, “Fətəli xan” və bir çox başqa ekran əsərlərinə musiqi bəstələyib.

Azərbaycan professional dirijorluq məktəbinin formalaşması və inkişafı Niyazinin  adı ilə bağlıdır. Məhz onun gərgin əməyi sayəsində 1938-ci ildə Azərbaycan Dövlət Simfonik Orkestri yaradılıb.

Maestro Niyazi SSRİ Xalq artisti fəxri adına, SSRİ və Azərbaycan Dövlət mükafatına, C.Nehru adına Beynəlxalq mükafata layiq görülüb. Sovet İttifaqının ən yüksək adı olan Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif olunub.

Niyazi dühası bütün musiqi dəyərləndiricilərinin qəlbini fəth etmişdi. Dahi bəstəkar Qara Qarayevdən tutmuş konservatoriya tələbələrinədək hamı Niyazini maestro deyə çağırırdı.

Niyazi Avropa və Asiya ölkələrinin bir çoxunda dinləyicilərin intəhasız sevgisini qazanmışdı. Ən müxtəlif musiqi janrlarında yazılmış əsərlərin bədii ideya məzmununa

dərindən nüfuz edə bildiyinə görə ifa etdiyi əsərlərin mürəkkəb konsepsiyasını və üslub xüsusiyyətlərini ətraflı açıqlamaqla dinləyiciləri məftun qoyurdu. Buna görə də onun adı dünya ölkələrinin çox görkəmli dirijorlarının adları ilə bir sırada çəkilir.

Niyazi bütün həyatı boyu Azərbaycan bəstəkarlarının yeni əsərlərinin ilk ifaçısı, ilk interpretatoru idi. Qara Qarayevin, Cövdət Hacıyevin, Arif Məlikovun əsərlərinin dərinliyini və bədii ifadəliliyini dinləyicələrə tam genişliyi ilə çatdırırdı. Fikrət Əmirovun, Soltan Hacıbəyovun əsərləri Niyazinin ifasında tam parlaqlığı ilə incə çalar genişliyi ilə səslənirdi.

Niyazinin fantastik musiqi duyumu var idi. O, notlarda əks olunmuş bütün səs uyarlıqlarını düzgün fərqləndirə bilirdi. Onun çox fenomenal musiqi yaddaşı var idi. Partituranı ötəri nəzərdən keçirərkən sanki not vərəqlərinin bir-birinin ardınca fotosunu çəkirdi. Bu xüsusiyyəti ona partituranı kitab kimi oxumaq imkanı verirdi. Auditoriyaya və ifaçılara təsir göstərmək qabiliyyətinə malik dirijorlara mənsub sənətkar idi. Müəllif mətninə, xüsusilə də klassik bəstəkarların mətnlərinə çox hörmətlə yanaşırdı, ifaçılardan orijinalın ruhuna riayət olunmasını qətiyyətlə tələb edirdi. Buna baxmayaraq, keyfiyyətin yaxşılaşması naminə öz həmkarlarının əsərlərində düzəlişlər də edirdi.

O həm də eruditliyi ilə başqalarından fərqlənirdi. Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyasının üzvi kimi məqalələrin yüksək elmi səviyyədə hazırlanması üçün qüvvəsini əsirgəmirdi. Şən və hazırcavablığı, incə yumoru, adamlarla ünsiyyət yaratmaq bacarığı ilə redaksiya əməkdaşlarının rəğbətini qazanmışdı. Bu dahilik səviyyəsinə yüksəlmiş böyük şəxsiyyət çox sadə və mehriban adam idi. Özünü elə aparırdı ki, tərəf-müqabilləri onun böyük şöhrət sahibi olduğunu az qala unudurdular. Uzaq keçmişdə şahidi olduğu hadisələri maraqla danışırdı.

Maestro həm də Allah adamı idi. Danışırdı ki, xarici ölkələrin konsert salonlarında dirijor pultu arxasına keçəndən sonra nəzərlərimi Allah dərgahına yönəldib ürəyimdə deyirəm: Allahım, mənə kömək ol ki, xalqımın, Vətənimin adını uca saxlaya bilim, çalğım uğurlu olsun ki, Vətənimə alnıaçıq, fəxrlə dönüm".

Niyazi Azərbaycan musiqisinə dərindən nüfuz etməklə çox nümunəvi ifa qabiliyyəti nümayiş etdirir, çaldığı əsərin başlıca ideyasını diqqətə çatdıra bilirdi. Fikrət Əmirovun muğamlarını və özünün "Rast" muğamını, Qara Qarayevin "İldırımlı yollarla" baletindən süitanı böyük ruh yüksəkliyi ilə ifa edirdi.

Bir dəfə çox təcrübəli konsertmeyster Anisim Aleksandroviç Berlin məşqlərin birindən sonra Niyazinin əlini əlinə alıb demişdi: "Baxın, maestronun xarüqələr yaradan qızıl əllərinə".

Niyazi bəstəkarlıq və dirijorluq fəaliyyəti ilə yanaşı, böyük vətənpərvər maarifçi idi. Deyirdi ki, bütün Şərq aləmində ilk dəfə milli opera yaradan, müasir simfonik və balet əsərləri ilə bir çox Avropa ölkələrini ötüb keçən Azərbaycan xalqı özünün yüksək intelektual səviyyəsinə görə bütün müsəlman ölkələri xalqlarına nümunədir.

Buna görə də çalışırdı ki, Azərbaycan bəstəkarlarının yaratdıqları simfonik əsərləri başqa xalqlarla yanaşı, respublikanın bölgələrində yaşayan sadə adamlara dinlətməyi və başa düşməyi öyrətsin. Azərbaycanın elə bir şəhər və rayonu yox idi ki, Niyazi orada konsert verməsin. O, Fransaya qostrol səfərindən qayıdandan sonra istedadlı musiqi nəzəriyyəçisi və yazıçı Kərim Kərimovu evinə dəvət edib Azərbaycanın cənub rayonlarına simfonik orkestrlə getmək arzusunu bildirmişdi. Kərim Kərimov həmin konsertlərdə bir müharizəçi kimi çıxış etməli idi. Niyazi ona mühazirələrə ciddi hazırlaşmasını tapşırmışdı. Kərimov az qala Niyaziyə "Maestro, siz nə qəribə adamsınız, belə yorucu xarici səfərdən sonra Monte Karlonun

gözəl kurortlarında istirahət etmək əvəzinə, respublikamızın ən isti rayonlarına getmək istəyirsiniz” –demək istəmiş, amma susmağı lazım bilmişdi.

## Yubiley tədbirlərinin keçirilməsi

XX əsr Azərbaycan musiqi mədəniyyətindən söz açarkən, qüdrətli dirijor və bəstəkar, musiqi-ictimai xadim, Hacıbəyovlar nəslinin ən parlaq nümayəndələrindən biri-Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun-hamının qısaca maestro Niyazi adlandırdığı böyük şəxsiyyətin adı ön sıralarda çəkilir. D. Şostakoviçin sərrast ifadəsi ilə desək, “Niyazinin hər işdə bərq vuran istedadı” ona yaradıcılığının bütün istiqamətlərində öz tutarlı sözünü deməyə, silinməz iz qoymağa gözəl imkan yaratmışdı.

Niyazi bütün həyatı boyu Azərbaycan musiqisində yaranmış yeni əsərlərin ilk və təkrarolunmaz təfsirçisi idi və bu əsərlərin geniş təbliğində, beynəlxalq aləmdə şöhrət qazanmasında müstəsna xidmətlər göstərmişdir. Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Arif Məlikov, Aqşın Əlizadə, Vasif Adıgözəlov və bir çox digər görkəmli bəstəkarlarımızın opera, balet və simfoniyaları ilk dəfə məhz Niyazi sənətinin ecazkar sehri ilə dinləyicilərin hafizəsinə həkk olunmuşdur.

Bəli, bu il Azərbaycan xalqının professional musiqisinin banisi, böyük bəstəkar, dahi dirijor, Azərbaycan xalqının böyük mədəniyyət xadimi, ictimai xadim Niyazinin 110 illik yubileyidir. Bu yubiley münasibətilə respublikamızın bir çox təhsil müəssələrində, ali və orta musiqi məktəblərində, musiqi kolleclərində, kitabxanalarda, muzeylərdə təbdbirlər planı hazırlanmışdır. Tədbirlər planına əsasən sərgilər, oxucu konfransları, anım, xatirə və ədəbi-bədii gecə, və s. aiddir. İlk öncə görkəmli bəstəkar, dirijor maestro Niyazinin yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn; “Əbədiyaşarlıq zirvəsi fəth edən dirijor”, “Tanıdığımız

qədər tanımadığız maestro”, “Niyazi dünyasına səyahət”, “Sehirli çubuğun möcüzəsi”, “Dünya şöhrətli dirijor və görkəmli bəstəkar”, “Sənətkar qüdrəti”, “Dahilər ölmür”, “Unudulmaz maestro”. “Maestro Niyazi-110”, “Əsrlərin mifləşmiş sənətkarı” və s.

Sərginin nümunəsini sizlər üçün veririk:

1.Başlıq: “Unudulmaz maestro”

2. Kitablarının nümayişi.

3.Görkəmli insanların maestro Niyazi haqqında söylədikləri.

4. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.

6. Foto sərgi.

**Foto sərgi**










САБИР КӘРИМОВ
НИЈАЗИ


Azərbaycanın görkəmli şəxsiyyətləri
NİYAZİ
Biblioqrafiya

## Görkəmli şəxsiyyətlərin maestro Niyazi haqqında söylədikləri:

1. Niyazi respublikamızda da, keçmiş Sovet İttifaqında da, dünyanın ən böyük ölkələrində də tanınan, sayılan, hörmət qazanmış bir sənət ustasıdır. Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycan mədəniyyətinə, milli musiqimizə böyük töhvələr vermiş və eyni zamanda, Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür.

**Heydər Əliyev, Ümumilli lider**

2. Niyazinin Azərbaycan incəsənətinin çiçəklənməsi yolunda zəngin fəaliyyəti müasir mədəniyyət tariximizin parlaq səhifələrini təşkil edir. Milli dirijorluq məktəbinin formalaşması və az bir vaxtda böyük inkişaf yolu keçməsi bilavasitə onun adı ilə bağlıdır. Niyazi Azərbaycan musiqisində bitkin və dolğun məzmunlu simfonik əsərlərin müəllifi kimi də milli simfonizmin təşəkkülünə dəyərli töhvələr vermişdir.

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti**

3. Cəsarətlə demək olar ki, Azərbaycan musiqisinə ümumdünya şöhrəti qazandıran musiqiçilərdən biri istedadlı dirijor və bəstəkar Niyazidir.

**Dmitri Şostakoviç**

4. Musiqi ilə bağlı olan bütün həyatım boyu mən sovet incəsənətinin bu çox parlaq nümayəndəsinin intensiv

fəaliyyətini izləyirəm. Planetin müxtəlif meridianlarında səslənməsinə görə Azərbaycan musiqisi bu adama borcludur.

**Tixon Xrennikov**

5. Bir bəstəkar kimi mən ən böyük əsərlərimin Niyazinin idarəsilə ilk ifasını çox eşitmişəm. Mübağiləsiz deyə bilərəm ki, hər dəfə bundan daha yaxşı ifa arzulamamışam.

**Qara Qarayev, Bəstəkar**

6. Müəllifin fikrini incəliyinə qədər başa düşmək, Hissləri düzgün və səmimi əks etdirmək Praqada beynəlxalq musiqi festivallarında iştirak etmiş ən yaxşı dirijorlardan biri olan bu görkəmli sovet sənətkarlarının ifaçılıq sənətinin səciyyəvi xüsusiyyətidir.

**Vatslav Dobuaş, Çexoslavakiya**

7. Niyazinin sənəti ən yüksək qiymətə layiqdir. Onun əlləri qeyri-adi, iradəsi böyük və xarakteri güclüdür.

**Karlo Sekki, İtaliya**

8. Mən bu diqqətəlayiq sənətkarın nadir istedadını yüksək qiymətləndirirəm. Niyazini müasir dövrün seçmə dirijorlarından sayıram.

**Adnan Sayqun, Türkiyə**

9. “Qarand Opera”nın əla orksestri maestro Niyazinin idarəsi ilə elə çalmışdır ki, bu cür yalnız böyük sənətkarın rəhbərliyi altında çalmaq olar.

**Pyer Berlioz, Fransa**

10. Mənim fikrimc, Niyazi dünyanın ən görkəmli dirijorlarından biridir.

**Filipp Bonoski, ABŞ**

Maestro Niyazinin adı hər bir azərbaycanlıya-şəxsən tanıyana da, tanımayana da, yaradıcılığını öyrənən və bilən peşəkar musiqiçiyə də, aləmdən uzaq olan insana da doğmadır, yaxındır. Bu doğmalığı, o adı öz fenomal istedadı, fədakar zəhmətkeşliyi, əməyi ilə qazanmışdır.

Bu il fenemol istetada malik, böyük şəxsiyyət Niyazinin 110 illik yubileyidir. Yubiley münasibətilə keçirilən təbdirlərdən biri də kitab müzakirəsidir. Bildiyiniz kimi, dahi şəxsiyyətlər, fenemol insanlar haqqında bir çox kitablar, monoqrafiyalar yazılır. Belə şəxsiyyətlər haqqında yazılan yazılar dövrü mətbuatda daha çox oxunur və yayılır. Bu tip kitabların yazılmasında məqsəd tanınmış şəxsiyyətlərin yaradıcılığını oxucular arasında sevdirmək və tanıtmaqdan ibarətdir.

Keçirilən tədbirdə də məhz bu haqda söhbət edəcəyik.

Bu gün işığına yığışdığımız dahi insan Niyazi haqqında yazılan kitabın müzakirəsini keçirəcəyik.

Azərbaycanın görkəmli şəxsiyyətləri seriyasından olan "Niyazi" biblioqrafiya adlı kitab Bakı-2012-ci ildə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən nəşr olunmuşdur. Kitabın tərtibçiləri H. Həşimova, Ş. Məmmədli, ixtisas redaktoru və buraxılışa məsul şəxs fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi K.Tahirov, redaktor G.Səfərəliyevadır.

Kitabın ön səhifəsində Azərbaycan Respublikası Prezidentinin Niyazinin 100 illik yubileyi haqqında sərəncamı verilmişdir.

**Sərəncamı sizlərə təqdim edirik:**

**Niyazinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2012-ci ilin avqust ayında Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, tanınmış dirijor və bəstəkar, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı, Azərbaycan Dövlət Mükafatı və Beynəlxalq Nehru Mükafatı laureatı Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun) anadan olmasının 100 illiyi tamam olur. Niyazinin Azərbaycan incəsənətinin çiçəklənməsi yolunda zəngin fəaliyyəti müasir mədəniyyət tariximizin parlaq səhifələrini təşkil edir. Milli dirijorluq məktəbinin formalaşması və az bir vaxtda böyük inkişaf yolu keçməsi bilavasitə onun adı ilə bağlıdır.

Niyazi Azərbaycan musiqisində bitkin və dolğun məzmunlu simfonik əsərlərin müəllifi kimi də milli simfonizmin təşəkkülünə dəyərli töhfələr vermişdir.

Ölkəmizdə musiqi mədəniyyətinin inkişafı və milli musiqinin təbliği sahəsində mühüm xidmətlər göstərən qüdrətli sənətkar Niyazinin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, Niyazinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 may 2010-cu il**

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından olan bu vəsait Niyazi haqqında ilk göstəricidir. Vəsaitdə bəstəkarın həyat və yaradıcılığını əks etdirən materiallar 1950-ci ildən 2012-ci ilə qədər olan dövrü əhatə edir. Azərbaycan və rus dillərində tərtib olunmuş göstəricidə Niyazinin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, əsərləri, haqqında çap olunmuş materiallar öz əksini tapmışdır.
Hər bölmədə materiallar xronoloji qaydada, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır.
Biblioqrafiyada Niyazinin Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində saxlanılan əlyazmaları, səsyazmalar və repertuarı da öz əksini tapmışdır.
Müzakirəsini keçirdiyimiz bu göstərici bəstəkarlar, musiqişünaslar, Azərbaycan Dövlət Musiqi Akademiyasının, musiqi profilli kolleclərin və orta ixtisas musiqi məktəblərinin tələbələri, kitabxanaçılar, habelə musiqi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.
Tədbir qonaqların çıxış və məruzələri ilə davam edir.

Xalqımızın dünya mədəniyyəti və incəsənətinə bəxş etdiyi istedadlı və unudulmaz simalardan biri dirijor və bəstəkar, özünün ifaçılıq fəaliyyəti ilə Azərbaycanın musiqi tarixində böyük rol oynamış Niyazinin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbir iki hissədən ibarət olur; birinci hissə ədəbi, iknici hissəsi isə bədii. Keçirilən gecəyə kitabxanaçı iki ay qabaqcadan hazırlaşır. Beləki, kitabxanaçı tədbirə dəvət olunan qonaqları seçir, öncədən dəvətnamələr paylayır, dəvətnamənin keçiriləcəyi ünvanı qeyd edir. Təşkil olunan tədbirə əsasən musiqişünaslar, müğənnilər, ali və orta ixtisas məktəbinin tələbə və şagirdləri, fəal oxucular, kitabxanaçılar dəvət olunur. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. Birinci hissəsi çıxış və məruzələrlə keçirilən tədbir, ikinci hissəsi maraqlı və

yaddaqalan olsun deyə, musiqi və dirijorun əsərləri ilə davam edir.
**“Əbədiyaşarlıq zirvəsini fəth edən dirijor”** adlı tədbirin ssenarisini təqdim edirik:
Səhnə gül dəstələri ilə bəzədilir, dirijorun portreti səhnənin divarından asılır.



Aparıcılar dirijorun bəstələdiyi “Rast” muğamının sədaları altında səhnəyə daxil olurlar.

**I Aparıcı:** Ta qədimdən Azərbaycan xalqı özünün ən görkəmli, sevimli və hörmətli sənətkarlarını-şairləri, ədəbiyyatçıları, rəssamları, memarları, musiqiçiləri...ustad adlandırır.
Ustad. Bu adı qazanmaq asan deyildir. Bu ad özünün çox böyük istedadı ilə fərqlənən, ilhamla və fədakarcasına yorulmadan çalışan, ümumxalq əhəmiyyətli parlaq yaradıcılıqla məşğul olan sənətkara verilir.
Ustad Niyazi. Maestro Niyazi. Niyazinin adı çoxdan və layiqli olaraq belə qoşa səslənir. Musiqidə o, bu qoşa adla tanıınır.
İfaçı musiqiçinin məharəti yalnız o zaman bədii hadisəyə çevrilir ki, bu məharət  vasitəçilik hüdudlarını aşır və öz varlığı ilə əsas

musiqi yaradıcılığı səviyyəsinə yüksəlir, əsərlərdə olan ideyaların, fikirlərin və hisslərin fərdi qaydada dərindən qavranilması ilə onları yeni bir qüvvə ilə açıb göstərir. Belə nadir məziyyət həqiqətən böyük sənətkarın ifaçılıq məharətinə xas olur. Bu məharət dinləyicidə musiqi ilə müəmmalı bir bağlılıq hissi doğurur, onu həmişəlik, eləcə də həmin anda musiqinin varlığı ilə qovuşdurur.

**II Aparıcı:** Zəmanəmizin böyük musiqiçilərindən sayılan dirijor Niyazinin məharəti belə məharətdir. Onun interpretasiyalarında musiqi ən ülvi, dəyərli sərvət kimi, ətraf mühiti dərk etməyin və əks etdirməyin təzahürü kimi başa düşülür. Bu interpretasiyalarda elə bil musiqi "möcüzə"si elə bir "dönüş" baş verir ki, bu, adamların mənəviyyatca kamilləşməsinə, onlarda gözəllik və ülvilik duyğuları tərbiyə olunmasına kömək edir.

Niyazi ilk cığır açan dirijorlardan, təbliğatçı, maarifçi dirijorlardandır. Bunu Azərbaycan sovet musiqisinin simfonik və musiqili səhnə əsərlərinin ilk ifasına aid çoxlu fakt, rus və Qərbi Avropa klassik musiqi əsərlərinin interpretasiyası ilə bağlı parlaq nailiyyətlər, sovet və müasir xarici ölkə bəstəkarlarının yaradıcılığı ilə daimi ünsiyyət sübut edir.

Dəfələrlə müxtəlif ölkələrdə çıxış etməsi Niyazinin ifaçılıq fəaliyyətinin gözəl səhifələrini təşkil edir. Niyazinin bəstəkarlığı parlaq fərdi bədii yaradıcılıq xüsusiyyətləri ilə səciyyəvidir. İstər mahnı olsun, istərsə də iri simfonik əsər, opera və ya balet, fərqi yoxdur, onun müxtəlif janrlarda yaratdığı musiqi və kökləri ilə xalq musiqisinə bağlıdır, Vətənə, onun tarixinə və bugünkü gözəl həyatına əbədi məhəbbəti əks etdirir. Niyazinin əsərləri Azərbaycan musiqisi salnaməsində layiqli yer tutut, ölkəmizin çoxmillətli musiqi sənətinin nailiyyətlərini artırır.

**I Aparıcı:** Bəli, bu təkrarsız sənətkar, parlaq ifaçılıq və bəstəkarlıq istedadına malik şəxsiyyət özünün son dərəcə orijinal yaradıcılığı ilə milyon-milyon dinləyicinin və tamaşaçının ürəyinə yol tapmışdır.

Niyazinin istedadı bir-biri ilə qırılmaz tellərlə bağlı olan üç istiqamətdə inkişaf etmişdir: həm bəstəkar, həm dirijor, həm də ictimai xadim kimi.
Niyazi həm də bir çox dram tamaşalarına, kinofilmlərə bəstələnmiş musiqilərin də müəllifidir. Niyazi dünyanın bir çox ölkələrində qastrollarda olmuş, opera, balet vəs. musiqi əsərlərinə dirijorluq etmişdir. Onun əsas ifaçılıq fəaliyyəti Azərbaycan Dövlət Poera və Balet Teatrı ilə sıx bağlı olmuşdur. Onun bioqrafiyasından məlum olur ki, dahi bəstəkar bu teatrda müxtəlif vəzifələrdə-dirijor, direktor, bədii rəhbər və baş dirijor kimi çalışıb. Maestronun böyük şövq və məhəbbətlə bu teatrımızda tamaşaya hazırladığı "Nərgiz" (m.Maqamoyev), "Vətən" (Q.Qarayev və CşHacıyev), "Sevil" (F.Əmirov), "Qaratoxmaq qadın" (P.Çaykovski), "Knyaz İqor" (A.Borodin), "karmen" (J.Bize), operaları, "Gülşən" (S.Hacıbəyov), "Yeddi gözəl", "ildırımlı yollarla (Q.Qarayev) baletləri incəsənət tariximizin yaddaqalan səhifələridir. Azərbaycanın başqa bir azman bəstəkarı Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti 50 ildən çoxdur ki, dünyanın musiqi salonlarında göstərilir. Bu əsər insanları heyrətə gətirməklə bərabər, Azərbaycan musiqisinin qüdrətindən xəbər verir. Həmin baleti ilk dəfə 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında tamaşaya məhz Niyazi hazırlamışdı.
**II Aparıcı:** Niyazini yaxından tanıyanlar təsdiqləyərlər ki, onda çox böyük istedad və qəribə məharət var idi. Keçmiş SSRİ-nin məşhur bəstəkarları çalışırdılar ki, onların əsərlərinə məhz Niyazi quruluş versin. O, Avropanın möhtəşəm teatrlarında özünü dəfələrlə təsdiqləmişdi. Parisin, Londonun teatr səhnələrində göstərilən müxtəlif opera və baletlərə dirijorluq etmişdi.

Hələ o dövrlərdə Niyazi tez-tez Ankaradan, İstanbuldan dəvətlər alır, müxtəlif operalarda dirijorluq edirdi. Böyük sənətin, qeyri-adi istadadın, bənzərsiz musiqi qabiliyyətinin qarşısında hədlər və sədlər çox zəif görünürdü. Niyazi

İstanbulda türk bəstəkarı Ə.Sayçunun “Koroğlu” operasının ilk tamaşasına və “Yunis İmrə” oratoriyasına dirijorluq etmişdi.

Bir faktı dəfələrlə təkrar etməkdən qürur duyuruq ki, Niyazi bütün qitələrdə sevilirdi. Bütün varlığı ilə millətinə bağlı olan, onun mədəniyyət tarixinin zənginləşməsində öz yaradıcılıq töhfələrini əsirgəməyən Niyazi həm də böyük mənada beynəlmiləlçi idi. Onu bəşəri ideyalar, duyğular, bütövlükdə insan düşündürürdü. Bu mənada o, 1961-ci ildə məşhur hind şairi və yazıçısı Rabindranat Taqorun “Çitranqoda” fəlsəfi dramının mötivləri əsasında “Çitra” baletini yazdı. Bu balet Hindistanda böyük maraqla qarşılandı.

Musiqimizin hansı tərəfindən Niyaziyə müraciət etsək, onu zirvədə görürük. Qətiyyətlə deyə bilərik ki, Niyazinin Azərbaycan kinosunun inkişafında da xüsusi yeri var. “Almaz”, “Kəndlilər”, “Fətəli xan”, “Mahnı belə yaranır” filmlərinin musiqisinin müəllifi Niyazidir. O həm də ən gözəl mahnı bəstəkarı idi. O, təkcə fortepiano və orkestr üçün əsərlər yazmırdı. “Vətən haqqında mahnı”, “Təbrizim”, “Arzu”, “Dağlar qızı”adlı nəğmələri Niyazinin bizə bəxş etdiyi ən gözəl şərqilərdən sayılır. “Kəklik”, “Qaragilə”, “Xumar oldum”, “ay bəri bax”, “Küçələrə su səpmişəm” və s. Azərbaycan xalq mahnılarını simfonik orkestr üçün işləmişdi.

“Vətən haqqında mahnı” Niyazinin bəstəkarlıq yaradıcılığında xüsusi yer tutur. Mahnıda vətən mövzusu başlıca mövzudur və bəstəkarın bütün sonrakı əsərlərinin canını təşkil edir.

“Vətən haqqında mahnı” geniş melodik nəfəsi, gözəl harmonik yaraşığı, koloritorkestrləməsi ilə adamı valeh edir. BU mahnıda hər şey sevinc və şövq saçır. Mahnı bir növ doğma diyarın hüsnünün təzələnməsi və gözəlləşməsi haqqında hekayətdir.

Sonda Niyazinin qətiyyətlə söylədiyi bir fikirlə tədbirimiz başa vururuq: O, deyirdi “bəstəkar məktəblə ilboyu öz əlaqəsini davam etdirməlidir. Mənim arzum odur ki, bütün

müəllimlərimiz Üzeyir bəyə oxşasınlar. Çünki bizim dahi Üzeyirimiz, Müslüm Maqamayevimiz, ilk dirijorumuz olan Əbdürrəhim bəy Haqverdiyevimiz Qori seminariyasını bitirmişlər. Onlar əslində müəllim idilər. Amma daxili istək, həvəs, əsl vətənpərvərlik onları hansı zirvəyə yüksəltdi. Müəllim hər şeyə qadir güclü bir insan deməkdir. Təkcə hərfləri öyrətmək azdır. 32 hərfin daxilindəki musiqini, nəğməni uşaqlara çatdırmağı bacaraq".

Bəli, yenə də o unudulmaz insan böyük bir orkestri öz sehirli çubuğu ilə idarə edir. Əllərinin hərəkətində igidlərin Vətən, torpaq uğrunda yürüşü duyulur. Gözlərinin dərinliyində bir ölməzlik işarəsi parıldayır.

Allah sənə rəhmət eləsin, böyük ustad! Sən həmişə qəlbimizdəsən!

Tədbirin sonunda "Niyazi dünyasına səyahət" adlı ekskursiya təşkil olunur. Tədbirdə iştirak edən qonaqlar maestro Niyazinin ev museyinə ekskursiya edirlər.

Qeyd etmək istərdik ki, Niyazi adına ev muzeyi 1994-cü il sentyabrın 18-də olub.

Muzeyin giriş hissəsində Niyazinin heykəli var. Muzey üç otaqdan ibarətdir (yemək, yataq, iş otağı).

Yemək otağında Niyazi Həcər xanımla birlikdə asudə vaxtlarını keçirib, Bakıya gələn dostlarını, qonaqlarını burada qarşılayıb. Yataq otağında Niyazi ilə xanımının 1938 və 1958-ci illərdə çəkdirdiyi rəsmlər asılıb. Otaqdakı şkafda isə dahi dirijorun geyindiyi geyimlər və hədiyyə verilən milli geyimlər var. Həmşinin otaqdakı güzgünün qabağında İrandan gətirilən iynəqabı, Monqolu mücrüsü və Fransadan gətirilən taxma düymələr qoyulub. Otağın bir küncündə isə 1963-cü ildə Monqolustanda və 1980-ci ildə Özbəkistanda bağışlanan milli geyimlər asılıb. Maestro Niyazi gününün əsas hissəsini iş otağında keçirərmiş. Bu otaqdakı divarda onun dövrünün tanınmış şəxsiyyətləri ilə rəsmləri asılıb. Otaqda əsərlərini ifa etdiyi piano və üzərində ona verilən suvenirlər də var. Yazı

masasının üzərində Malikonun “Dirijorluğun əsasları” və “Koroğlu” haqqında kitab, siqaret qutusu, içində siqaret olan külqabı və s. qoyulub. Niyazinin şəxsi kitabxanasında 486 adda kitab var. İş otağında maestronun 1950-ci ildən qalan radiosu da saxlanılır. Otaqlardan ən böyüyü qonaq otağıdır. Niyazi bu otaqdan nadir hallarda, böyük ziyafətlər olanda istifadə edib.
İndi isə bu otaqda Niyazinin ildönümü ilə əlaqədar tədbirlər keçirilir. Niyazinin iri portreti, rəsmləri, royalı var. Otaqlardan birində 1961-ci ildə Fransada qostrolda olan zaman geyindiyi frak və ayaqqabıları qoyulub.
Bir sözlə, bu gün yubileyini keçirdiyimiz əfsanəvi dirijorun ev muzeyini ziyarət  etdik, ruhuna dualar oxuduq.

F.Köçərli adına RUK-nın Məlumat və Biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı:

**Ədəbiyyat siyahısı**

Kitablarda
Rast : Simfonik muğam. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2012. - 156 s.

Haqqında
Hidayətqızı S. Niyazi Zülfüqar oğlu Tağızadə // Muğam qəsri. II kitab : Sarı sim : Yüz muğam bilicisindən müxtəlif illərin müsahibəsi 2000-2016. - Bakı : Apostrof, 2016. – S. 194-199.

Kərimov S. Niyazi : Həyatı və yaradıcılığı haqqında monoqrafiya. - Bakı : Yazıçı, 1982. - 88, [8] s.

Niyazi **(1912-1984)** : Xalq artisti, bəstəkar, drijor. - Bakı : [s. n.], 2017. - 1 plakat foto
Niyazi : **Niyazi** Zülfüqar oğlu Hacıbəyov-Tağızadə. Biblioqrafiya. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 200 s.

Dövrü mətbuatda

Abdullayeva İ. Azərbaycanın bəstəkar - dirijoru Niyazinin yaradıcılığı haqqında bəzi mülahizələr // Qobustan. - 2019. - № 4. - S. 57-59.

Araplı Y. Mən sevəndə... qızın qardaşları qan-qan deyirdi : Maestro Niyazi haqqında // Mədəni həyat. - 2012. - № 9. - S. 64-65.

Azəri L. Hacıbəyovların açdığı sənət yolu : Şuşalı bəstəkarlar // Mədəniyyət : qəzet. - 2022. - 8 iyun. - № 43. - S. 6.

Babayev A. Maestro Niyazi // Mədəni Həyat . - 2014. - № 4. - S. 46-49.

Bakıda görkəmli dirijor, maestro **Niyazinin** abidəsinin açılışı olub : Prezident İlham Əliyev mərasimdə iştirak edib // Azərbaycan : qəzet. - 2017. - 3 fevral. - № 24. - S. 1-2.

Bayramov R. "Təəssüf ki, indiki gənclər arasında Niyazini tanımayanlar var" : Niyazinin mənzil muzeyinin direktoru Rza Bayramovla müsahibə // Palitra. - 2014. - 4 iyul. - № 117. - S. 13.

Bayramov R. Maestronun xatirəsinə: Niyazinin mənzil-muzeyinin fəaliyyətə başlamasının 20 ili tamam olur // Mədəniyyət. - 2014. - 19 sentyabr. - № 72. - S. 13.

Bayramov R. Sənətlə qovuşan qardaş ürəklər : Maestro Niyazinin 105 və görkəmli türk bəstəkarı Əhməd Adnan Sayqunun 110 illiyinə həsr olunur // Xalq qəzeti. - 2017. - 13 sentyabr. - № 199. - S. 11.

Cansail Y. Maestro Niyazi : Bəstəkar və dirijor Niyazinin ev-muzeyi haqqında // Mədəniyyət. - 2010. - 28 may. - № 35. - S. 15.

Dadaşov E. Maestro : Dirijor Niyazi haqqında // Mədəni Maarif. - 2011. - № 10. - S. 62, 64.

Əliyev Y. Atam deyirdi ki, oğlumun barmaqlarından musiqi damır: Korifey sənətkarımız Niyazidən otuz il əvvəl alınmış müsahibə // Azərbaycan müəllimi. - 2010. - 30 aprel. - № 16. - S. 9.

Əliyeva A. Maestronun mənzil-muzeyi: 20 il əvvəl və bu gün // Mədəni Həyat . - 2014. - № 10. - S. 11-13.

Əliyeva İ. Azərbaycan dirijorluq məktəbinin banisi: Maestro Niyazi: Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır // Azərbaycan : qəzet. - 2021. - 14 noyabr. - № 246. - S. 6.

Əliyeva İ. Klassik musiqimizin maestrosu : Niyazi - 105 // Azərbaycan : qəzet. - 2017. - 20 avqust. - № 181. - S. 8.

Əlizadə A. Ustad : Portret cizgiləri : Maestro Niyazi // Ədəbiyyat qəzeti. - 2013. 22 fevral. - № 7. - S. 7.

Elsevər S. Sehr : Maestro Niyazi haqqında // Mədəniyyət. - 2009. - 4 noyabr. - № 80. - S. 9.

Əsəd F. Əllərinin dalınca uçan adam : SSRİ Xalq Artisti, dirijor və bəstəkar Niyazi haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 5 mart. - № 9. - S. 30-31.

Hacı K. Maestronun portreti : Fazil Rəhmanzadənin "Ən böyük Niyazi, ondan böyük yox!." kitabına öz söz // Ədəbiyyat qəzeti. - 2020. - 8 fevral. - № 5. - S. 20-21.

Hidayətoğlu Y. İlk və son görüş : Mayestro Niyazi haqqında // Mədəni - Maarif. - 2007. - № 7. - S. 29-31.

Hidayətoğlu Y. İlk və son görüş : SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Beynəlxalq Nehru mükafatı laureatı... // Mədəni həyat. - 2012. - № 8. - S. 29 - 31.

Hidayətqızı S. Doğulduğu ayda vəfat edən "knyaz" : Niyazi Zülfüqar oğlu Hacıbəyov haq-da // Mədəniyyət. - 2006. - 9 sentyabr. - S. 4.

Hüseynov A. Əbədiyaşarlıq zirvəsini fəth edən dirijor : Niyazi Hacıbəyli haqqıda // Azərbaycan. - 2010. - 28 noyabr. - № 261. - S. 7.

Hüseynov Ə. Bravo, Maestro! // 525-ci qəzet. - 2021. - 23 oktyabr. - № 194. - S. 20.

Hüseynov Ə. Mən gəlmişəm sizə qonaq : 2 avqust - maestro Niyazinin anım günüdür // 525-ci qəzet. - 2022. - 29 iyul. - № 132. - S. 8, 15

Xəlilzadə F. Bəşər mədəniyyətinin inciləri : Şuşanın işğalından 20 il ötür : Əbədiyaşar ömürlər // Azərbaycan. - 2012. - 21 aprel. - № 86. - S. 7.

Xəlilzadə F. O, orkestrin ürəyi idi : Niyazi - 100 // Azərbaycan. - 2012. - 18 avqust. - № 184. - S. 5.

Xəlilzadə F. Unuda bilmədiyim görüş : Xalq artisti, drijor Niyazi haqqında // Mədəniyyət. - 2011. - 22 iyul. - № 53. - S. 13.

Xəyalə. Niyazi dünyasına səyahət // Şəkər villası. - 2006. - 23 may. - S.18.

Kazımzadə A. Kinomuz, musiqimiz // Mədəniyyət. - 2009. - 18 sentyabr. - № 68. - S. 10.

**Maestro** Niyazi**nin 100** illik yubileyinə hazırlıqla bağlı "dəyirmi masa" keçirilib // Mədəniyyət. - 2011. – 05 avqust. - № 57. - S. 4.

Məhərrəmova T. 100 yaşlı maestro : Milli dirijorluq məktəbinin formalaşması və az bir vaxtda böyük inkişaf yolu keçməsi Niyazinin adı ilə bağıdır // Kaspi. - 2011. - 5 avqust. - № 138. - S. 13.

Məhərrəmova T. Niyazi sənətinin böyüklüyü : Maestro pult arxasına keçəndə "məni yaşadan budur" deyirdi // Kaspi. - 2018. - 15 mart. - № 49. - S. 15.

Meydanlı F. Ustadlara ustad sən idin sanki, Niyazi : Niyazi - 100 silsiləsindən // Kaspi. - 2012. - 11-13 avqust. - № 370. - S. 8, 12.

Miriyev A. Dünya musiqi xəzinəsinə daxil olan sənətkar - Niyazi : Maestronun mənzil muzeyinin kolleksiyasında 6200-dən artıq qiymətli eksponat qorunur // Palitra. - 2013. - 3 sentyabr. - № 159. - S. 11.

Mirməmməd G. İyirmi beş ilin sınağı // Mədəniyyət. - 2009. - 19 avqust. - N 59. - S. 6.

Mükərrəmoğlu M. Maestro Niyazinin xatirəsi heç zaman unudulmayacaq // Xalq qəzeti. - 2009. - 21 avqust. - №184. - S. 6.

Mükərrəmoğlu M. O, musiqi sənətinin zirvəsini fəth edə bildi : Niyazi - 100 // Xalq qəzeti. - 2012. - 18 avqust. - № 184. - S. 5.

Niyazi **(1912-1984)** // Savalan. - 2013. - 29-31 mart. - № 20. - S. 2.

Niyazinin **ünvanı**: Bəstəkar **Niyazinin** ev muzeyi haqqında // Mədəniyyət. - 2008. - 13 dekabr. - S. 6.

Pənahqızı T. Maestro Niyazinin Yunis Əmrə və Aşıq Veysəl sevgisi... // Kaspi. - 2013. - 2 avqust. - № 139. - S. 7.

Səma S. Təkliyin təntənəsi // Mədəniyyət. - 2009. - 12 iyun. - S. 10.

Tağızadə Ş. Maestro Niyazinin ev-muzeyi // Azərbaycan. - 2005. - 25 dekabr. - S. 7.

Təhmirazqızı S. Maestro Niyazi // Mədəniyyət. - 2010. - 20 avqust. - № 57. - S. 7.

Ulutürk X. R. Maestro : Maestro Niyazi haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 11 avqust. - S. 1, 2, 5.

Vahid T. 100 ilin təntənəsi // Mədəniyyət. - 2012. - 17 oktyabr. - № 75. - S. 5.

Vahid T. Dahilər ölmür : Böyük adamların ölümünə yox, ölümsüzlüyünə inanıram. Niyazinin mənzil-muzeyini ziyarət edərkən bir daha buna şahid oldum // Mədəniyyət. - 2011. – 19 avqust. - № 61. - S. 6.

Vahid T. Tanıdığımız qədər tanımadığımız maestro : Maestro Niyazi // Mədəniyyət. - 2012. - 17 avqust. - № 60. - S. 8.

Vəliyev M. Maestro Niyazi // Mədəniyyət. - 2015. - № 8. - S. 96-99.

Zümrüd. Əsrlərin mifləşmiş sənətkarı // Səs. - 2016. - 7 yanvar. - № 2. - S. 12.

# Heyrətamiz istedada malik sənətkar

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: [www.clb.az](http://www.clb.az)**